**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

ƏMR

№ 559/T

Bakı şəhəri "30" 12 2020-ci il

**2020/2021-ci tədris ilinin payız semestrinin qış imtahan sessiyasının təşkili və keçirilməsi barədə**

COVİD-19 pandemiyası və Vətən müharibəsi ilə əlaqədar 2020/2021-ci tədris ilinin payız semestrində tədris prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" 29.08.2020-ci il tarixli 312 nömrəli, "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"nın təsdiq edilməsi barədə" 10.10.2020-ci il tarixli 332 nömrəli Qərarlarına və Təhsil Nazirinin 11.09.2020-ci il tarixli, F-424 saylı əmri ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə ali və orta ixtisas təhsili müəssisələrində tədris prosesinin təşkilinə dair Təlimat"a əsasən təşkil edilmiş və 29.12.2020-ci il tarixində yekunlaşmışdır.

Təhsil Nazirinin 11.12.2020-ci il tarixli F-530 nömrəli Əmrini və ATU-nun Elmi Şurasının 30.12.2020-ci tarixli 01 saylı onlayn iclasının qərarını əsas tutaraq

**əmr edirəm:**

**I. İmtahan sessiyasının təşkili**

- 2020/2021-ci tədris ilinin payız semestrinin qış imtahan sessiyası 11.01.2021-ci il tarixindən 08.02.2021-ci il tarixinə kimi saat 08.30-19.30 aralarında onlayn təşkil edilsin;
- Semestr ərzində sərbəst işlər və davamiyyət daxil olmaqla cari qiymətləndirilmə aparılmasın;
- Cari qiymətləndirilməyə ayrılan 50 bal imtahana ayrılan 50 bal üzərinə əlavə olunaraq 100 bal ilə imtahan qiymətləndirilməsi aparılsın;
- Fənlər üzrə aralıq qiymətləndirilmə zamanı keçid balı 51 bal hesab edilsin;
- İmtahan keçirilən fənlər üzrə hər test 2 balla qiymətləndirilərək 50 test sualı ilə imtahan keçirilsin;
- Əvvəlki semestrlərdən akademik borcu qalan tələbələrin iki fənni dinləmədən iştirak etdikləri imtahan zamanı fənni dinlədiyi semestrdəki cari

qiymətləndirilmənin nəticəsi nəzərə alınsın və imtahan hər test 1 bal qiymətləndirilməklə 50 test sualı üzrə aparılsın;

- İmtahanda istifadə olunan bank sualları bütün fənlər üzrə təhsil proqramının məzmunu nəzərə alınmaqla 30% azaldılsın;
- Qiymətləndirmənin nəticəsindən narazı qalan tələbələr üçün Apellyasiya komissiyası təşkil edilsin. Tələbələrin şikayəti imtahan günü onlayn qəbul edilsin (elektron ünvana göndərməklə) və imtahanı sonrakı gün Apellyasiya komissiyasının üzvlərinin, fənn üzrə ekspertlərin və tələbənin iştirakı ilə onlayn apellyasiya keçirilsin;
- İmtahanın nəticəsinə əsasən akademik borcu yaranan tələbələrə imtahan sessiyası bitdikdən sonra yenə onlayn keçirilməklə 2 fəndən çox olmayaraq fənni (fənləri) dinləmədən ödənişli əsaslarla imtahan təşkil edilsin. Əlavə olaraq əvvəlki semestrlərdən akademik borcu yaranmış tələbələrə iki fənn üzrə də fənni dinləmədən (payız semestrində tədris olunan fənlər olmaqla) ödənişli əsaslarla öz istəkləri ilə imtahanda iştirak etmələrinə şərait yaradılsın;
- Onlayn imtahanlarda texniki səbəbdən iştirak edə bilməyən və ya iştirak zamanı yaranan hər hansı internet kəsintisi ilə əlaqədar imtahanı bitirə bilməyən (üzrlü) tələbələrə yenidən imtahan keçirilməsi üçün (bir fənn olmaqla) imtahan sessiyası ərzində, digər üzrlü səbəbdən (xəstəlik və s) imtahanda iştirak etməyən tələbələrə isə fənni təkrar dinləmədən yenidən imtahan vermələri üçün sessiya bitdikdən sonra şərait yaradılsın;
- Təkrar imtahan keçirilməsi 09.02, 10.02.2021-ci il tarixlərində təşkil edilsin;
- Onlayn imtahanın nəticələrinə görə hər hansı fəndən (fənlərdən) kəsri yaranan tələbələrə həmin fənn (fənlər) üzrə akademik borc hesab edilsin;
- İstehsalat təcrübəsi üzrə qiymətləndirmə həmin kurs üzrə tədris olunan fənlərin ÜOMG-lərinə əsasən aparılsın;
- Onlayn dərslərdə iştirak etmiş və ya müəyyən səbəblərdən iştirak edə bilməyib fənn (fənlər) üzrə mövzunu yenidən mənimsəmək istəyən tələbələr üçün öz istəkləri və müraciətləri əsasında imtahan sessiyası başlayana qədər ödənişsiz əsaslarla onlayn şəkildə icmal mühazirələr təşkil edilsin. Bütün müraciətlər yanvar ayının 5-nə kimi qəbul olunsun;

## II. Fakültə dekanlarına, mərkəzləşdirilmiş mühasibatlığa (baş mühasib İ.A.Mehrabov) tapşırılsın:

- Onlayn keçirilən imtahan zamanı akademik borcu yaranan tələbələrə fənni dinləmədən imtahan təşkil edilməsi ödənişli əsaslarla aparılsın;

- Payız semestrinin nəticələrinə görə təqaüd almaq hüququ olan tələbələrin siyahısı imtahan sessiyası bitdikdən sonra 5 iş günü ərzində müəyyən edilsin;
- Tələbələrin təqaüd hesablanması zamanı təqaüd sayı daxilində ballar eyni olduqda əvvəlki (yaz) semestrin balı nəzərə alınsın;

**III. Rezidentura və magistratura şöbəsinə (müdir N.H.Sultanova) tapşırılsın:**

- Magistratura səviyyəsində imtahan sessiyası onlayn şəkildə ixtisas fənləri üzrə sifahi formada təşkil edilsin;
- İmtahanda hər fənn üzrə 25 sual (mövzu başlıqları) hazırlanmalı və tələbələrə verilməlidir;
- Hər fənn üzrə imtahan hər biri 20 balla qiymətləndirilən 5 sual üzrə aparılır, imtahan nəticəsi 100 balla qiymətləndirilməli, keçid balı 51 müəyyən edilsin;
- Qeyri ixtisas fənləri üzrə imtahan hər test 2 balla qiymətləndirilərək 50 test sualı ilə mərkəzi qaydada keçirilsin;

**IV. İmtahanla bağlı hər hansı şikayətlərin operativ araşdırılması məqsədilə aşağıdakı**

**tərkibdə Operativ qərargah yaradılsın:**

Sədr: T.V.Vəliyev - Ümumi işlər üzrə prorektor
Üzvlər: C.L.Qasımov - Əməkdaşların Həmkarlar Komitəsinin sədri
F.Y.Talıbov - III Daxili xəstəliklər kafedrasının professoru
E.H.Kərimli - Tələbə Həmkarlar İttifaqı komitəsinin sədri
S.N.Əliyev - Patoloji fiziologiya kafedrasının dosenti
E.R.Hüseynov - Onkologiya kafedrasının assistenti

1) Operativ qərargahın sədrinə tapşırılsın:
   - Təhsil Nazirliyində fəaliyyət göstərən aşağıda qeyd olunan əlaqə məlumatları ictimaiyyətin və tələbələrin nəzərinə çatdırılsın
     "Qaynar xətt" e-mail – xett@edu.gov.az
     "Qaynar xətt" telefon – 146, (012)-597-09-70
   - Universitetin operativ qərargahına daxil olan məlumatlar Təhsil Nazirliyinin "Qaynar xətti"nə vaxtında çatdırsın.

**VI. Tədris şöbəsinə (müdir S.S.Cavadov), Fakültə dekanlarına, Təhsil keyfiyyətinin təminatı və innovasiyalar şöbəsinə (müdir N.A.Sədiyeva), İmtahan mərkəzinə (müdir Ü.N.Cəfərova), İnformasiya sistemlərinin təşkili və idarəetmə mərkəzinə (rəhbər R.K.Əliyev) tapşırılsın:**

- Bu qaydalar yalnız 2020/2021-ci tədris ilinin payız semestrinin qış imtahan sessiyası üçün nəzərdə tutulmuşdur, bu müddət ərzində qüvvədə qalır, növbəti semestrlərdən tətbiq edilməsin;

**VII. İmtahan mərkəzinə (müdir Ü.N.Cəfərova), İnformasiya sistemlərinin təşkili və idarəetmə mərkəzinə (rəhbər R.K.Əliyev) tapşırılsın:**

- Onlayn imtahan nəticələrini hər gün imtahan bitdikdən sonra Tədris şöbəsinə və müvafiq dekanlıqlara versinlər

**VIII. Tədris şöbəsinə (müdir S.S.Cavadov) tapşırılsın:**

- İmtahan nəticələrini ümumiləşdirərək statistik hesabat hazırlasın;
- İmtahan sessiyası bitdikdən sonra sessiyanın təşkili, keçirilməsi və nəticələri haqqında sessiya bitdikdən sonra 10 gün ərzində Təhsil Nazirliyinə təqdim etmək üçün yekun hesabat hazırlasın;
- Əmr çoxaldılaraq aidiyyatı üzrə çatdırılsın.

**IX. Mətbuat xidməti şöbəsinə (şöbə müdiri G.Aslanova) tapşırılsın:**

- Universitetin "Qaynar xətt" xidmətinin fəaliyyəti və imtahan sessiyasının gedişatı barədə kütləvi informasiya vasitələrinə müntəzəm olaraq məlumatın verilməsini təmin etsin;
- Əmrin məzmunu haqqında icmal məlumatı Univesitetin internet saytında yerləşdirilməsini təmin etsin.

**X.** Əmrin icarsına nəzarət tədris və müalicə işləri üzrə prorektor S.C.Əliyevə tapşırılsın

Əsas: ATU-nun Elmi Şurasının 30.12.2020-ci il tarixli 01 saylı onlayn iclasının protokolu.

**Rektor** **professor Gəray Gəraybəyli**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ TİBB UNİVERSİTETİ KADRLAR ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

ATU KADRLAR ŞÖBƏSİNİN

Müdiri